

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 152 (21.304)

6 avqust 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı Şərur rayonunda maarifləndirici seminar keçirilib

***Avqust ayının 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsinə nəzarətin artırılması, dövlət orqanlarında sənədlərlə işin təşkili vəziyyəti və dövlət qulluqçularının reyestrinin aparılması ilə bağlı Şərur rayonunda maarifləndirici seminar keçirib. Seminarda rayon İcra Hakimiyyəti aparatının, mərkəzi icra hakimiyyəti orqanlarının Şərur rayonunda yerləşən qurumlarında və Şərur Rayon Məhkəməsində qulluq keçən dövlət qulluqçuları iştirak ediblər.***

Seminarı giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Kamal Ələkbərov açaraq etik davranış qaydaları haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı ötən bir il ərzində həyata keçirilən tədbirlər haqqında məlumat verib.



Komissiyanın sədri Etibar Musayev çıxış edərək bildirib ki, 31 may 2007-ci il tarixdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qanun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsiplərini, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyən edir. Qanunun birinci maddəsində qeyd olunur ki, etik davranış qaydaları dövlət qulluqçusu statusuna malik olan bütün şəxslərə şamil edilir. Hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə borcludur.

Bildirilib ki, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə dövlət qulluqçuları öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludurlar. Onlar bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdırlar. Dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə dövlət orqanlarına hüquqi və fiziki şəxslərin inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, Azərbaycan Respublikasının, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Qeyd edilib ki, dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır. O, özünün və ya maraqlı şəxslərin mənafelərinin onun xidməti vəzifələrini yerinə yetirməsinə təsir etməsinə şərait yaratmamalı, qulluq etdiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir. Etik davranış qaydalarının pozulması dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır. Dövlət qulluqçusunun intizam məsuliyyətinə cəlb edilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

Komissiyanın sektor müdiri Arzuman İmanov çıxış edərək seminar iştirakçılarına dövlət orqanlarında sənədlərlə işin təşkili, dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları haqqında məlumat verib. O, dövlət qulluqçuları reyestrinin aparılması ilə bağlı dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları haqqında danışıb.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Naxçıvan şəhərində quruculuq işləri davam edir



Muxtar respublikada mədəniyyət obyektlərinin inşası, onların maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin fəaliyyətinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Naxçıvan şəhərini də əhatə edib. Aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində son illər Naxçıvan şəhərində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün bir neçə yeni bina inşa edilib.

Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin Atatürk küçəsində inşa edilən 2 nömrəli Uşaq musiqi məktəbi üçün binada tikinti işləri artıq yekunlaşıb. 4 mərtəbədən ibarət olan binada inşaat işlərini Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi həyata keçirib. Xüsusi zövqlə işlənmiş, Naxçıvan memarlıq məktəbinin ənənələri və müasirliyin vəhdət təşkil etdiyi bina şəhərimizin ən yaraşıqlı ünvanları ilə bir sırada yer alıb.

Binada gələcək perspektiv nəzərə alınıb, uşaqların musiqinin sirlərinə yiyələnmələri üçün lazımi şərait yaradılıb. Bütün bunlar şagirdlərin rahat təhsil almasına, tədris prosesinin yüksək səviyyədə təşkilinə imkan verəcək. Binada sinif otaqları, müəllimlər, direktor və iş otaqları, kitabxana, arxiv və tədbirlər zalı vardır. Sinif otaqlarında şagirdlərin nəzəri biliklərinin və praktik vərdişlərinin artırılması üçün lazımi şərait yaradılacaq. Müasir inventar və avadanlıqlarla təchiz ediləcək məktəbdə şagirdlər seçdikləri ixtisas üzrə zəruri musiqi alətləri və tədris vəsaitləri ilə təmin olunacaqlar.

Binanın həyətində də geniş abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi qurulub.

* * *

***"2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a uyğun olaraq Naxçıvan şəhərində genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, əhalinin rahatlığına xidmət edən müasir infrastruktur yaradılır. Bu tədbirlərin tərkib hissəsi kimi şəhərin müxtəlif ünvanlarında yenidənqurma və abadlaşdırma işləri görülür.***

Hazırda şəhərin Zərifə Əliyeva küçəsi boyunca uzanan avtomobil yollarının yenidən qurulması davam etdirilir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən aparılan abadlıq və təmir işlərinə 80-ə yaxın fəhlə cəlb olunub.



İş icraçısı Əhməd Abdullayevin müxbirimizə verdiyi məlumata görə, bir kilometr məsafədə aşınma işləri aparılır, torpaq sahəsi bərkidilir, kommunikasiya xətləri dəyişdirilir. Evlərin divarları da təmir olunaraq əraziyə müasir görkəm verilir. Qeyd edək ki, yol kənarlarında səkilər salınacaq, suaxıdıcılar çəkiləcəkdir. İşıqlandırma sistemi də yeniləşdiriləcək.

İşlər başa çatdıqdan sonra avtomobillərin və piyadaların rahat və təhlükəsiz hərəkəti təmin olunacaq, küçə şəhərimizin müasir ünvanlarından birinə çevriləcək.

* * *



Naxçıvan Muxtar Respublikasında əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Son illərdə muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Naxçıvan şəhərində də mənzil tikintisinin həcmi xeyli artıb. Yeni yaşayış binalarının tikilməsi və mövcud binaların əsaslı şəkildə yenidən qurulmasında əsas məqsəd sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılmasıdır.

Hazırda Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsində 8 mərtəbəli yeni yaşayış binasının tikintisi davam etdirilir. Tikinti işlərinə 2015-ci ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları binanın 7-ci mərtəbəsində beton-qəlib işlərini başa çatdırıb, 8-ci mərtəbə üçün hazırlıq işləri aparırlar. 450 kvadratmetr sahədə ucaldılan yaşayış binasında 32 mənzil yerləşəcək ki, bu mənzillərdən 8-i üçotaqlı, 24-ü isə ikiotaqlı olacaq.

**Xəbərlər şöbəsi**

## Xarici ticarət dövriyyəsi genişlənir

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və yerli məhsulların xarici bazarlara çıxarılması istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir. Bu sahədə müəyyənləşdirilmiş layihələr reallaşdıqca ölkəmizin xarici ticarət dövriyyəsində muxtar respublikamızın da payı artır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, hazırda muxtar respublika 33 xarici dövlətlə ticarət əməliyyatları aparır. Nəticədə, cari ilin ilk 6 ayında Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsi 208 milyon 291 min ABŞ dolları olmuşdur. Xarici ticarət dövriyyəsinin 184 milyon 421 min ABŞ dollarını ixrac, 23 milyon 870 min ABŞ dollarını idxal təşkil etmişdir. Nəticədə, həyata keçirilmiş xarici ticarət dövriyyəsindən 160 milyon 550 min ABŞ dollarından artıq həcmdə müsbət saldo yaranmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə ixracın həcmi 5,3 faiz artmış, idxalın həcmi isə 58,4 faiz azalmışdır.

Məlumatda muxtar respublikadan ixrac olunan məhsulların 79 faizinin sənaye, 21 faizinin kənd təsərrüfatı məhsulları, idxalın 31,8 faizinin sənaye məhsulları, 31,6 faizinin nəqliyyat vasitələri və onların hissələri, 0,8 faizinin ərzaq məhsulları, 8,1 faizinin tikinti materialları, 27,7 faizinin isə digər mallar olduğu da bildirilir.

## Muxtar respublikada meliorasiya və irriqasiya sistemi müasir tələblərə uyğun qurulur

***Etibarlı ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər sırasında su təchizatı sisteminin yaxşılaşdırılması və meliorativ tədbirlərin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bu amil diqqət mərkəzində saxlanılır.***



Bu günlərdə havaların çox isti keçməsi suvarma suyuna olan tələbatı daha da artırmışdır. Ona görə də iyul ayında muxtar respublika ərazisində suvarmanın səmərəli və mütəşəkkil aparılması məqsədilə 7,65 kilometr kanal, 26,6 kilometr ara arxları və 12 kilometr kollektor lildən təmizlənmiş, 4,45 kilometr yeni suvarma xətti çəkilmişdir. O cümlədən Araz çayında torpaqların yuyulmasının qarşısını almaq üçün 1 kilometr məsafədə sahilbərkitmə işi aparılmış, Vayxır sol sahil kanalının altında tikilən mexaniki suvarma şəbəkəsində mövcud kollektor lildən təmizlənmişdir. Hazırda ərazidə su hidrantları və sayğaclar quraşdırılır.

Muxtar respublikada subartezian quyularının sayının artırılması yaşayış məntəqələrinin su təminatını xeyli yaxşılaşdırmışdır. İyul ayında Şərur rayonunun Çəmənli, Ələkli, Qarahəsənli, Maxta, Kəngərli rayonunun Şahtaxtı, eləcə də Sədərək rayonu ərazisində yeni subartezian quyuları qazılmış və mövcud quyularda təmir-bərpa işləri görülmüşdür. Ümumiyyətlə, bəhs olunan dövrdə 84 subartezian quyusu təmir olunmuş, 20 subartezian quyusunda yeni nasos quraşdırılmışdır. Həmçinin 6 kəhrizdə təmir işləri davam etdirilmişdir.

Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində dayanıqlı və keyfiyyətli içməli su təminatı yaradılır. Ötən ay bu istiqamətdə görülən işlər çərçivəsində 7,54 kilometr içməli su xətti, 1,37 kilometr kaptaj təmir olunmuş, 2,15 kilometr yeni içməli su xətti və 2,7 kilometr yeni kaptaj tikilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyənlər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytına ***(www.dqmk.nmr.az)*** daxil olmaqla elektron müraciət formasını doldurmalı və tələb olunan sənədləri 6 avqust 2015-ci il tarixdən 7 sentyabr 2015-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) şəxsən təqdim etməklə elektron ərizələrini (həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dən $17^{30}$-dək) təsdiq etdirməlidirlər.

**Vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *şəxsiyyəti təsdiq edən sənəd*
- *ali təhsil haqqında sənədlər (Ali təhsil müəssisələrini 2015-ci ildə bitirən namizədlər ali təhsil müəssisəsini bitirmələri haqqında arayış təqdim edə bilərlər)*
- *əmək kitabçası və ya surəti (olduğu təqdirdə)*
- *1 ədəd ağ fonda rəngli fotoşəkil (3x4 sm ölçüdə)*

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

**Qeyd:** Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

***Əlavə məlumat almaq üçün:***
**e-mail: dqmk@nakhchivan.az**

**Telefon : 545-65-71**

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmənin adı | Ştat sayı | Təsnifat | Vəzifənin adı |
|---|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | | |
| 200013 | Aparatda. Baş hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 200216 | Ekoloji ekspertiza və monitorinq sektoru. Ekspert | 1 | 6 | məsləhətçi |
| 200223 | Bioloji sərvətlərin bərpası, artırılması və hesaba alınması sektoru | 1 | 6 | baş məsləhətçi |
| 200316 | Meşələrin bərpası, mühafizəsi və meşəsalma sektoru | 1 | 6 | məsləhətçi |
| 200326 | Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| 200435 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| 209403 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| 202405 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **8** | | |
| **2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | | |
| 210103 | Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 210306 | Əmək münasibətləri və əməyin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| **2.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | | |
| 211013 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 2 | 7 | baş məsləhətçi |
| 211016 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 2 | 7 | məsləhətçi |
| 211036 | Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 2 | 7 | məsləhətçi |
| 211055 | Laboratoriya (sektor səlahiyyətli) | 1 | 7 | aparıcı məsləhətçi |
| **2.2. Dövlət Məşğulluq Xidməti** | | | | |
| 211135 | Əmək birjası sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 218004 | Naxçıvan Şəhər Məşğulluq Mərkəzi | 1 | 7 | böyük məsləhətçi |
| 212103 | Babək Rayon Məşğulluq Mərkəzi | 2 | 7 | baş məsləhətçi |
| 214103 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 214105 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 216105 | Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 215103 | Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 217106 | Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| **2.3. Dövlət Sosial Təminat Xidməti** | | | | |
| 211065 | Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 218163 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 218175 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 218186 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 219036 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 212036 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 214016 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| 214036 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 213013 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 213016 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 216013 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216016 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 216025 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 216036 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 215016 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 215025 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 215036 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 3 | 7 | baş məsləhətçi |
| 217016 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| **2.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti** | | | | |
| 210113 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210114 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | böyük məsləhətçi |
| 210123 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210124 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | böyük məsləhətçi |
| | **Cəmi:** | **47** | | |
| **3. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | | |
| 220303 | Ərazi orqanları ilə iş və kadrlar şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 220115 | Gənclərlə iş şöbəsi. Asudə vaxtın təşkili və vətənpərvərlik tərbiyəsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 220216 | Kütləvi bədən tərbiyəsi və idman şöbəsi. İdman məktəbləri üzrə | 1 | 6 | məsləhətçi |
| 228016 | Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 222003 | Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 222005 | Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 224003 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 224016 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 226003 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 226016 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227006 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **11** | | |
| **4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi** | | | | |
| 230123 | Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | baş məsləhətçi |
| 230125 | Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230126 | Qiymət, infrastruktur və mənzil-kommunal sektoru | 1 | 6 | məsləhətçi |
| 230215 | Sənaye sahələri və təhlili sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230225 | Sənaye parkları sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230315 | İnvestisiya təşviqi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230415 | Rəqabətin qorunması sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230416 | Rəqabətin qorunması sektoru | 1 | 6 | məsləhətçi |
| 230425 | İstehlak bazarına nəzarət və istehlakçıların hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230426 | İstehlak bazarına nəzarət və istehlakçıların hüquqlarının müdafiəsi sektoru | 1 | 6 | məsləhətçi |
| 230436 | Monitorinq və analitik təhlil sektoru | 1 | 6 | məsləhətçi |
| 230445 | Təbii inhisarlar və dövlət inhisarına aid xidmətlərin tənzimlənməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230515 | Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 230516 | Sahibkarlığın inkişafı şöbəsi | 1 | 6 | məsləhətçi |
| 230613 | Dövlət əmlakının idarə olunması, qorunması və səmərəli istifadəsinə nəzarət sektoru | 1 | 6 | baş məsləhətçi |
| 230615 | Dövlət əmlakının idarə olunması, qorunması və səmərəli istifadəsinə nəzarət sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230625 | Dövlət əmlakının, özəlləşdirilməsinin təşkili və cəmiyyətlərlə iş sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 230063 | Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| 230065 | Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **19** | | |
| **5. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | | |
| 270023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| 270405 | Poçt rabitəsi şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 270316 | Efirə nəzarət və radiotezliklərin qeydiyyatı şöbəsi. Elektron təhlükəsizlik üzrə | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| **6. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | | |
| 290105 | Ümumtəhsil məktəbləri ilə iş üzrə şöbə | 1 | 6 | aparıcı məsləhətçi |
| 299107 | Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 294105 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 294125 | Ordubad Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 294106 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | məsləhətçi |
| 295107 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 295103 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297103 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **10** | | |
| **7. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi** | | | | |
| 280903 | Ümumi işlər sektoru | 1 | 6 | baş məsləhətçi |
| 280113 | Tibbi yardımın təşkili şöbəsi. Ginekoloq | 1 | 6 | baş məsləhətçi |
| 280715 | Kadrlar, elm və təhsil sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| **8. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | | |
| 249215 | Şərur Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru. Gəlirlərin proqnozu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 249115 | Şərur Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 246105 | Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 247105 | Sədərək Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **4** | | |

**9. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi**

| | | | | |
|---|---|---|---|---|
| 250105 | Mədəniyyət, mədəni irs və incəsənət şöbəsi. Musiqinin inkişafı üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 258007 | Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 252007 | Babək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 253007 | Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 255007 | Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 257007 | Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **6** | | |

**10. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**

| | | | | |
|---|---|---|---|---|
| 300105 | Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **1** | | |

**11. Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi**

| | | | | |
|---|---|---|---|---|
| 370105 | Suvarma sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 370206 | Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | məsləhətçi |
| 370406 | Layihə-ekspertiza şöbəsi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |

**12. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi**

| | | | | |
|---|---|---|---|---|
| 380203 | Şəhərsalma-arxitektura nəzarəti və texniki normalar şöbəsi. Şəhərsalma norma və qaydalarına nəzarət üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |

**13. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**

| | | | | |
|---|---|---|---|---|
| 420613 | Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| 420615 | Hüquq sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420515 | Akkreditasiya sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420315 | Analitik tədqiqatlar sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **4** | | |

**14. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi**

| | | | | |
|---|---|---|---|---|
| 398005 | Naxçıvan Şəhər Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 398006 | Naxçıvan Şəhər Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| 399006 | Şərur Rayon Statistika İdarəsi | 2 | 7 | məsləhətçi |
| 392003 | Babək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 394005 | Ordubad Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 395003 | Şahbuz Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 397003 | Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 397005 | Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **9** | | |

**15. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi**

| | | | | |
|---|---|---|---|---|
| 450013 | Aparatda. Hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 458006 | Naxçıvan Şəhər İdarəsi | 1 | 7 | məsləhətçi |
| 459006 | Şərur Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 454005 | Ordubad Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 454006 | Ordubad Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 453006 | Culfa Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 456003 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 456006 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 455006 | Şahbuz Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 457005 | Sədərək Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 457006 | Sədərək Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **11** | | |

**16. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu**

| | | | | |
|---|---|---|---|---|
| 499606 | Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| 499906 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 499705 | Şərur Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 492906 | Babək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 494605 | Ordubad Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 494906 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 493705 | Culfa Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496605 | Kəngərli Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496706 | Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 496906 | Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 495706 | Şahbuz Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 497605 | Sədərək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497805 | Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497906 | Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **14** | | |

**17. Naxçıvan Muxtar Respublikasının Sahibkarlığa Kömək Fondu**

| | | | | |
|---|---|---|---|---|
| 500703 | Maliyyə sektoru | 1 | 7 | baş məsləhətçi |
| 500603 | Sahibkarlığın inkişafı, investisiya layihələrinin ekspertizası və monitorinqi sektoru | 1 | 7 | baş məsləhətçi |
| 500605 | Sahibkarlığın inkişafı, investisiya layihələrinin ekspertizası və monitorinqi sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **3** | | |

**18. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası**

| | | | | |
|---|---|---|---|---|
| 530613 | Ekspertiza, proqramlaşdırma və lisenziya sektoru. Ekspertiza və proqramlaşdırma və lisenziya üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |

**19. Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi**

| | | | | |
|---|---|---|---|---|
| 540015 | Aparatda | 1 | 7 | aparıcı məsləhətçi |
| 540016 | Aparatda | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |

**20. Naxçıvan Şəhər İcra Hakimiyyəti**

| | | | | |
|---|---|---|---|---|
| 880007 | Aparatda | 1 | 7 | baş mühasib |
| 880206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 881012 | Qaraçuq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 881017 | Qaraçuq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 881067 | 3 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 881077 | 4 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **6** | | |

**21. Şərur Rayon İcra Hakimiyyəti**

| | | | | |
|---|---|---|---|---|
| 890007 | Aparatda | 1 | 7 | baş mühasib |
| 890206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 890303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 890604 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 890605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 891472 | Yuxarı Aralıq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 891192 | Xanlıqlar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 891422 | Axaməd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 891522 | Şərur şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 891412 | Vərməziyar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 891367 | Yuxarı Yaycı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891077 | Siyaqut kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891177 | Çomaxtur kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891457 | Kosacan kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891207 | Dizə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891237 | Alışar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891007 | Cəlilkənd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891187 | Danyeri kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891137 | Tənənəm kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891227 | Zeyvə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891497 | Xələc kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891517 | Kürçülü kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891507 | Gümüşlü kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891347 | Sərxanlı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891327 | Məmmədsabir kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **25** | | |

**22. Babək Rayon İcra Hakimiyyəti**

| | | | | |
|---|---|---|---|---|
| 820007 | Aparatda | 1 | 7 | baş mühasib |
| 820025 | İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 820206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 820403 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 820605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 821192 | Hacıvar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 821182 | Məmmədrza Dizə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 821262 | Babək qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 821117 | Aşağı Buzqov kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821157 | Didivar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821127 | Gərməçataq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821027 | Şıxmahmud kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821067 | Qoşadizə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821167 | Yuxarı Uzunoba kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821187 | Məmmədrza Dizə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **15** | | |

**23. Ordubad Rayon İcra Hakimiyyəti**

| | | | | |
|---|---|---|---|---|
| 840007 | Aparatda | 1 | 7 | baş mühasib |
| 840014 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| 840015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 840104 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 840404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 840405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 840605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |

| | | | | |
|---|---|---|---|---|
| 840206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 840706 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi. Kadrlar üzrə işin aparıcısı | 1 | 7 | məsləhətçi |
| 841222 | Bist kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841032 | Şəhriyar qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841042 | Yuxarı Əndəmic kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841312 | Aşağı Əndəmic kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841172 | Azadkənd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841072 | Vənənd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841272 | Xurs kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841302 | Yuxarı Əylis kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 841057 | Aşağı Əylis kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841307 | Yuxarı Əylis kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841137 | Düylün kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841247 | Sabirkənd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841227 | Bist kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841007 | Ordubad şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841037 | Şəhriyar qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841017 | Gənzə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **25** | | |
| | **24. Culfa Rayon İcra Hakimiyyəti** | | | |
| 830206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 830404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 830716 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| 830605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 831092 | Xanəgah kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 831112 | Göydərə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 831037 | Camaldın kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831117 | Göydərə kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831147 | Qazançı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831167 | Teyvaz kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831027 | Gülüstan kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831207 | Culfa şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831127 | Şurud kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **13** | | |
| | **25. Kəngərli Rayon İcra Hakimiyyəti** | | | |
| 860014 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| 860015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 860303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 860206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 860404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 860405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 860605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 861017 | Qarabağlar kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861067 | Qabıllı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861087 | Xıncab kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861057 | Yurdçu kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **11** | | |
| | **26. Şahbuz Rayon İcra Hakimiyyəti** | | | |
| 850303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 850206 | Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| 850605 | Memarlıq və tikinti şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 851092 | Aşağı Qışlaq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851062 | Gömür kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851172 | Daylaqlı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851012 | Badamlı qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851142 | Şahbuzkənd kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851072 | Ağbulaq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851192 | Türkeş kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 851047 | Nursu kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851067 | Gömür kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851127 | Qızıl Qışlaq kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851107 | Kolanı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851037 | Mahmudoba kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851177 | Daylaqlı kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **17** | | |
| | **27. Sədərək Rayon İcra Hakimiyyəti** | | | |
| 870007 | Aparatda | 1 | 7 | baş mühasib |
| 870015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 870303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 870206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 870404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 870716 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| 871012 | Sədərək kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 871002 | Heydərabad qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 871022 | Qaraağac kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | nümayəndə müavini |
| 871007 | Heydərabad qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 871027 | Qaraağac kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 871017 | Sədərək kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **12** | | |
| | **28. Məhkəmə orqanları** | | | |
| 710116 | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi. Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| 800005 | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| 780005 | Naxçıvan Şəhər Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 780106 | Naxçıvan Şəhər Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 780116 | Naxçıvan Şəhər Məhkəməsi. Tərcüməçi | 1 | 7 | məsləhətçi |
| 790005 | Şərur Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 790106 | Şərur Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 720106 | Babək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 740005 | Ordubad Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 740106 | Ordubad Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 730103 | Culfa Rayon Məhkəməsi | 1 | 7 | baş məsləhətçi |
| 750005 | Şahbuz Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 770005 | Sədərək Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Sədərək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **15** | | |
| | **YEKUN:** | **299** | | |

## Naxçıvan Muxtar Respublikası üzrə 2015-ci ilin iyul ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri ( manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 255022 | 25502 | 25603 | 100,4 |
| 2. | Şahbuz rayonu | 181590 | 18159 | 18219 | 100,3 |
| 3. | Şərur rayonu | 645490 | 64549 | 64730 | 100,3 |
| 4. | Naxçıvan şəhəri | 1014053 | 101405 | 101609 | 100,2 |
| 5. | Ordubad rayonu | 370692 | 37069 | 37129 | 100,2 |
| 6. | Sədərək rayonu | 82790 | 8279 | 8289 | 100,1 |
| 7. | Culfa rayonu | 319848 | 31985 | 31985 | 100,0 |
| 8. | Babək rayonu | 628299 | 62830 | 62830 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3182745 | 318202 | 330948 | 104,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **6680529** | **667980** | **681342** | **102,0** |

## İdmançımız Avropa birinciliyində iştirak edib

İsveçin Landskrona şəhərində keçirilən yaşı 15 və 17-yə qədər olan yeniyetmələrin ağır atletika üzrə Avropa birinciliyi davam edir. Turnirdə Azərbaycan milli komandası da iştirak edir. Yaşı 15-ə qədər olan idmançıların mübarizəsində 27 ölkədən 141 (63 qız, 78 oğlan), yaşı 17-yə qədər olan idmançıların mübarizəsində isə 29 ölkədən 192 (80 qız, 112 oğlan) atlet birincilik uğrunda mübarizə aparır.

Yığmamızın heyətində İsveçə yollanan idmançılar arasında Naxçıvan təmsilçisi Tarmenxan Babayev də var. O, yaşı 15-ə qədər oğlanların yarışında 62 kiloqram çəki dərəcəsində mübarizə aparıb. İdmançımız 197 kiloqram yekun nəticə göstərərək sıralamada 6-cı yeri tutub.

Qeyd edək ki, Avropa birinciliyi avqust ayının 9-na kimi davam edəcək.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Babək rayonunun Şəkərabad kəndində yaşayan Həmzəyev Mahmud Hüseyn oğlunun adına 15.05.2008-ci il tarixdə verilmiş 00007955 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 35-ci məhəllə, ev 18-də yaşayan İsmayılov Abbas Yaşar oğlunun adına olan 10483 inventar nömrəli texniki pasport və torpaq plan ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor əvəzi:
MUXTAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 594